# AMEA-nın üç muzeyi Mədəniyyət Nazirliyinə verilib

***G.QABİLQIZI***



Azərbaycanda mədəniyyətin inkişafı istiqamətində önəmli işlər görülməkdədir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş müstəqil Azərbaycanın mədəniyyət siyasəti xalqımızın milli dəyərlərini qorumağa, təbliğ etməyə yönəldilib. Prezidentimiz İlham Əliyev hakimiyyətə gəldiyi vaxtdan, digər sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də əsaslı islahatlar aparır, milli-mənəvi dəyərlərimizin inkişafını diqqət mərkəzində saxlayır. Bu gün biz deyə bilərik ki, ölkəmiz mədəniyyət də daxil olmaqla, bütün sahələrdə yeni islahatlar dövrünə qədəm qoyub. Prezident İlham Əliyevin mədəniyyət xadimləri ilə görüşlər keçirməsi bu islahatların yeni konturlarını yaratmaq baxımından olduqca əhəmiyyətlidir. Bu baxımdan hazırkı dövrü mədəniyyətin inkişafında yeni islahatlar dövrü adlandıra bilərik.

Ölkə başçısının 28 iyulda imzalanan Fərmanında mədəniyyət sahəsi ilə bağlı da önəmli məqamlar yer alıb. Fərmana əsasən, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Milli Azərbaycan Tarixi Muzeyi, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi və Hüseyn Cavidin Ev Muzeyi əmlakları ilə birlikdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin tabeliyinə verilib.

**Muzeylər təkmilləşdiriləcək**

Ölkə başçısının Fərmanı imzalamasının ardından nazirlik öhdəsinə düşən işlərin icrasına başlayıb. Nazirlik əvvəlcə cənab Prezidentə milli-mənəvi sərvətlərimizin qorunması və gələcək nəsillərə çatdırılması işində xüsusi diqqətinə görə təşəkkür edib. Bildirilib ki, bu sahədə bir sıra əlavə tədbirlərin həyata keçirilməsi zərurəti Nazirliyin qarşısına daha ciddi vəzifələr qoyur. Vurğulanıb ki, Mədəniyyət Nazirliyinin əsasnaməsinə uyğun olaraq dövlət mülkiyyətində olan muzeylər Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərir. Bu baxımdan tabeliyə verilən yeni muzeylərin - Milli Azərbaycan Tarixi Muzeyi, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi və Hüseyn Cavidin Ev Muzeyinin də mövcud vəziyyətinin təkmilləşməsi və idarə edilməsi yüksək standartlarla təmin ediləcək.

**Yeni Azərbaycan.- 2022.- 30 iyul.- S. 4.**